**Ticarət şəbəkələrində satışda olan dondurmalarla bağlı nəzarət tədbirlərinə dair məlumat**

**(12 iyul 2024)**

Bakı şəhəri daxil olmaqla, respublikanın bütün regionlarında ticarət şəbəkələrində satışda olan dondurmaların keyfiyyət və təhlükəsizlik göstəricilərinin normativ sənədlərin tələblərinə uyğunluğunun müəyyən edilməsi məqsədilə Qida Təhlükəsizliyi Agentliyinin keçirdiyi növbəti monitorinq çərçivəsində götürülmüş nümunələrin sınaq nəticələrinə əsasən, daha **3** yerli və **5** idxal olmaqla, ümumilikdə, **8** dondurma məhsulunda insan sağlamlığı üçün təhlükəli hesab edilən bakteriya (***Enterobacteriaceae***) aşkarlanıb.

Uyğunsuzluq aşkar edilmiş məhsul partiyalarının dövriyyədən çıxarılması və ticarət şəbəkələrindən geri çağırılması ilə bağlı **7** müəssisə barəsində məhdudlaşdırıcı tədbirlərin tətbiqinə dair qərarlar qəbul edilib və icra üçün sahibkarlara təqdim olunub. Eyni zamanda dondurma məhsullarının satışdan kənarlaşdırılması və istehsalçı müəssisələrə geri qaytarılması ilə bağlı ticarət şəbəkələrinin rəhbərlərinə rəsmi qaydada xəbərdarlıq olunub.

Ümumilikdə, monitorinq müddətində uyğunsuzluq aşkar edilmiş **2809 ədəd** dondurma məhsulunun ticarət şəbəkələrindən geri çağırılması, **2569 ədəd** məhsulun isə məhv edilməsi təmin edilib.

Uyğunsuzluq aşkar edilmiş dondurma məhsulu partiyaları aşağıdakılardır:

| **Məhsulun adı** | **İstehsalçı** | **İstehlaka yararsız məhsul partiyası** | **Aşkar edilmiş uyğunsuzluq** |
|---|---|---|---|
| “Saturn” əmtəə nişanlı karamelli və araxisli dondurma | "Rich S.A" MMC | 30.01.2024-30.03.2025 | Enterobacteriaceae bakteriyası |
| “Vineto” əmtəə nişanlı qozlu dondurma | Fiziki şəxs Yusubova Sərngül Kərəm qızı | 22.04.2024-22.02.2025 | Enterobacteriaceae bakteriyası |
| “Marka №1” əmtəə nişanlı şokoladlı plombir dondurma (çəki ilə satılan) | Fiziki şəxs Məmmədov Arif Firudin oğlu | 04.05.2024-04.03.2025 | Enterobacteriaceae bakteriyası |
| "Сибхолод" əmtəə nişanlı şokoladlı qlazur ilə qaymaq dadlı plombir Eskimo dondurma | “Tekaz” MMC, Rusiya Federasiyası | 12.07.2023-12.01.2025 | Enterobacteriaceae bakteriyası |
| “Qost Plombir” əmtəə nişanlı şokolad qlazurunda vanil ətirli Eskimo plombir dondurma | | 14.07.2023-14.01.2025 | Enterobacteriaceae bakteriyası |
| "Woohoo!" əmtəə nişanlı çiyələk desertli dondurma | “ANC Group” MMC, Belarus Respublikası | 25.03.2024-25.03.2025 | Enterobacteriaceae bakteriyası |

| | | | |
|---|---|---|---|
| “OE!” əmtəə nişanlı şokoladlı və kokoslu plombir dondurma | “Klin-Pro” MMC, Rusiya Federasiyası | 08.04.2024-08.10.2025 | Enterobacteriaceae bakteriyası |
| "Русский холод" əmtəə nişanlı vanilli plombir dondurma | Fiziki şəxs Babayev Elçin Ramizoviç, Rusiya Federasiyası | 02.04.2024-02.10.2025 | Enterobacteriaceae bakteriyası |